Ayn Rand

# ATLAS ÇİYİNLƏRİNİ QALDIRDI

II cild

Tərcüməçi:
Bəhlul Abbasov

qanun nəşriyyatı

**Ayn Rand**

# ATLAS SHRUGGED

Ayn Randın məşhur “Atlas çiyinlərini qaldırdı” romanı insanın fərdi azadlığı, yaradıcılığı və əxlaqi dəyərləri mövzularını dərinliklə araşdıran epik əsərdir. Həm fəlsəfi ideyaları, həm də mürəkkəb və maraqlı süjet xətti ilə oxucuları düşündürən və təsir edən klassikadır.

Əsərin əsas qəhrəmanı Daqni Taqqert ailəsinə məxsus “Taggart Transcontinental” dəmir yolu şirkətini ağır iqtisadi və siyasi şəraitdə idarə etmək üçün mübarizə aparır. Lakin cəmiyyətin dəyər sisteminin çökməsi yaradıcı və yenilikçi fərdləri təzyiqə məruz qoyur. Roman bu şəraitdə insanların əxlaqi və yaradıcı azadlıqlarını necə qoruduqlarını və uğur qazanmağa çalışdıqlarını göstərir.

Roman boyunca “Con Qolt kimdir?” ifadəsi sirli sual kimi təkrarlanır. Bu sual yalnız bir personajı deyil, həm də insan ağlının və fərdi təşəbbüsün əhəmiyyətini simvolizə edir. Ayn Rand bu əsərdə “obyektivizm” adlandırdığı fəlsəfi görüşlərini təqdim edir, fərdi azadlığı və dəyərləri qorumağın vacibliyini vurğulayır.

“Atlas çiyinlərini qaldırdı” təkcə roman deyil, həm də bəşəriyyətin gələcəyi, fərdi azadlığın qorunması və yaradıcı insanın gücü haqqında dərin fəlsəfi düşüncələr təqdim edən əsərdir.

# MÜNDƏRİCAT

## III HİSSƏ

### A ELƏ A-DIR


I FƏSİL. **ATLANTİDA** ........ **6**

II FƏSİL. **TAMAHKARLIQ UTOPİYASI** ........ **64**

III FƏSİL. **GÖZÜTOXLUQ** ........ **133**

IV FƏSİL. **ANTİ-HƏYAT** ........ **186**

V FƏSİL. **QARDAŞLARININ QORUYUCULARI** ........ **236**

VI FƏSİL. **QURTULUŞ KONSERTİ** ........ **297**

VII FƏSİL. **“DANIŞIR CON QOLT”** ........ **339**

VIII FƏSİL. **EQOİST** ........ **418**

IX FƏSİL. **GENERATOR** ........ **482**

X FƏSİL. **İÇİMİZDƏKİ ƏN YAXŞI ŞEYLƏR NAMİNƏ** ........ **505**

# III HİSSƏ
# A ELƏ A-DIR

## I FƏSİL
## ATLANTİDA

Daqni gözlərini açdıqda gün işığını, yaşıl yarpaqları və... kişi üzü gördü. "Bunun nə olduğunu bilirəm", – deyə düşündü. Bu onun hələ on altı yaşından görmək istədiyi dünya idi. İndi özü də bu dünyaya varmışdı. Elə bəsit, elə dəqiq görünürdü ki, içindəki duyğu cəmi iki sözdən və nöqtələrdən ibarət xeyir-duaya bənzəyirdi: "Hə, əlbəttə..."

Yanında diz çökmüş kişinin üzünə baxdı, görmək üçün canını verməyə hazır olduğu sima bu idi. Bu üzdə nə ağrının, nə qorxunun, nə də günahkarlığın izi görünürdü. Üzdəki ifadədən sahibinin öz qürurundan da qürur duyduğunu sezmək olurdu. Almacıq sümüyünün quruluşu onun çox ciddi, özündənrazı və xudpəsənd olduğunu düşünməyə əsas versə də, üzdə bundan əsər-əlamət yox idi. Sadəcə, hamısı bir yerdə bu təsəvvürü yaradırdı: sakit qətiyyət və əminlik, əfv diləməyən və bağışlamayan amansız məsumiyyət. Daqninin gözləri qarşısındakı nəyisə gizlətmək, nədənsə qaçıb qurtulmaq məcburiyyətində olmayan adamın üzü idi. Görmək və görünmək qorxusu yox idi. Daqninin onda ilk dəyərləndirdiyi cəhət gözlərinin sirayətedici baxışı oldu: görmə qabiliyyəti sanki ən sevdiyi aləti imiş, baxmaq isə sonsuz, nəşəli sərgüzəştmiş kimi davranırdı. Sanki gözləri həm onun özü, həm də dünya üçün ən yüksək dəyərə malik idi; özünə yönəlik olanlar görmə qabiliyyətindən ötrü, dünyaya yönəlik olanlar isə görülməyə bu qədər həvəslə dəyəcək şeylər bəxş etdiyi üçün idi. Daqni bir anlığa yanındakı kişinin yalnız şüur olması duyğusuna qapıldı. İndiyədək hansısa kişinin vücudunun bu qədər fərqində olmamışdı. Köynəyinin zərif parçası bədən cizgilərini gizlətdiyini qabardırdı; dərisi günəşdən qaralmışdı, vücudunda sərt, gərgin güc sezilirdi. Tökmə dəmir kimi idi. Sanki metaldan tökülmüşdü. Dərisi hamar idi, sanki alüminiumla misin qarışığından alınmışdı. Dərisinin rəngi şabalıdı saçlarının rəngi ilə həmahəng idi. Alnına tökülən telləri günəş şüaları altında qızılıya çalırdı. Bütün bu kompozisiyanın solmamış, sanki cidd-cəhdlə cilalanmış yeganə detalı tünd yaşıl rəngli gözləri idi.

Kişi xəfif təbəssümlə Daqniyə baxırdı. Bu təbəssüm əsla kəşfin doğurduğu sevinci ifadə etmirdi, adi, düşüncəli baxış idi. Sanki o da çoxdan bəri gözlədiyi, varlığına heç vaxt şübhə etmədiyi kiməsə, nəyəsə göz qoyurdu.

“Bu mənim dünyamdır, – Daqni düşündü. – İnsanlar da belə olmalı və özlərini belə hiss etməlidir. Arxada qalan hər şey – bütün bu illərin bütün çirkinlikləri, mücadilələri isə, sadəcə, kimlərinsə mənasız zarafatından başqa bir şey deyil”. Ona gülümsədi – cinayət ortağına gülümsəyirmiş kimi, rahatca, bir də heç vaxt önəm verməyəcəyi şeylərə istehza edirmiş kimi. Kişi də ona təbəssümlə cavab verdi. Eynilə onun kimi gülümsəyirdi. Sanki Daqninin nələr hiss etdiyini də, bunun nə anlama gəldiyini də bilirdi.

– Bütün bunları ciddiyə almaq lazım deyildi, doğrudur? – Daqni pıçıldadı.

– Lazım deyildi.

Məntiqi yerinə gəlməyə başlayırdı. Daqni bu adamı qətiyyən tanımadığını fərq etdi. Ondan aralanmağa çalışdı, amma uzandığı çəmənlikdə yalnız başını yüngülcə tərpədə bildi. Ayağa qalxmaq istəyəndə belində kəskin ağrı hiss etdi. Yerində qalmağa məcbur oldu.

– Tərpənməyin, miss Taqqert. Yaralanmısınız.

– Məni tanıyırsınız? – Səsi rəsmi və sərt idi.

– Sizi uzun illərdir tanıyıram.

– Mən sizi tanıyıram?

– Düşünürəm ki, bəli.

– Adınız nədir?

– Con Qolt.

Daqni heyrətlə ona baxdı.

Adam: – Niyə qorxdunuz? – deyə soruşdu.

– Çünki inanıram.

O gülümsədi, sanki Daqninin bu kəlmələrə verdiyi mənanı tamamilə başa düşdüyünü göstərməyə çalışırdı; bu təbəssümdə düşmənin ona meydan oxumasını anlamaq da, eyni zamanda uşağın özünü aldatmasına baxıb əylənmək də var idi.

Daqni qəzada parçalananın təkcə təyyarə olmadığını, özünə də nəsə olduğunu artıq anlamışdı – yavaş-yavaş özünə gəlirdi. Amma hələ də tapmacanın açmasını bir araya yığacaq vəziyyətdə deyildi. Bu adla bağlı bildiklərinin hamısını xatırlaya bilmirdi. Bildiyi tək bu idi ki, eşitdiyi ad onun gözündə qara boşluq mənasını ifadə edirdi. Amma bu boşluğun da yavaş-yavaş dolacağını bilirdi. Bu işi indi görmək iqtidarında deyildi. Yanındakı adam gur projektor kimi onun gözlərini qamaşdırır, qaranlıq künc-bucaqlardakı əşyaları görməsini əngəlləyirdi.

– Mən sizi izləyirdim? – deyə Daqni soruşdu.

– Bəli.

Daqni ehtiyatla ətrafına baxdı. Yamyaşıl çəmənlikdə, minlərlə fut yüksəkliyə – mavi səmaya dik baş vuran qranit qaya parçasının altında uzanmışdı. Çəmənliyin

digər tərəfində qayalar, şam və ağcaqayın ağaclarının parıldayan yarpaqları ətrafı saran dağların bir qədər uzaqdakı sırasını gizlədirdi. Daqninin təyyarəsi parçalanmamışdı – bir neçə fut aralıda qarnı üstə düşmüşdü. Heç yerdə başqa təyyarə, tikili və ya insan yaşayışının kiçicik əlaməti gözə dəymirdi.

– Bu nə vadidir belə? – deyə Daqni soruşdu.

Kişi gülümsədi.

– Taqqert terminalıdır.

– Nə demək istəyirsiniz?

– Görəcəksiniz.

Onda sanki bilərəkdən oyadılan bu qarışıq istək, nə qədər gücü qaldığını yoxlamaq cəhdinə yol açdı. Əllərini, ayaqlarını tərpədə, başını qaldıra bilirdi. Dərindən nəfəs aldıqda kəskin ağrı hiss etdi, ardınca da nazik xətt boyunca axan qan gördü.

– Buradan çıxmaq mümkündür? – deyə soruşdu.

Qolt cavab verəndə səsi ciddi idi, amma parıldayan yaşıl gözləri gülümsəyirdi.

– Əslində, xeyr. Amma müvəqqəti olaraq, bəli.

Daqni qalxmaq istədi. Qolt ona yardım etmək üçün əyildi, amma Daqni cəld, ani hərəkətlə gücünü topladı, onun əllərindən qurtularaq ayağa qalxmağa çalışdı.

– Düşünürəm, qalxa bilə... – deyə sözə başladığı anda, ayağa duran kimi yıxıldı. Topuğunda kəskin ağrı hiss etdi.

Qolt onu qollarına alıb qaldırdı, gülümsəyərək:

– Xeyr, miss Taqqert, qalxa bilməzsiniz, – dedi və çəmənlikdə yeriməyə başladı.

Daqni qollarını onun boynuna dolamış, başını onun çiyninə dayamış, qucağında hərəkətsiz uzanmışdı. Öz-özünə: “Cəmi bir neçə dəqiqəlik – bu vəziyyət davam etdiyi qədər – təslim ola bilərəm, hər şeyi unuda və özümə hissetmə izni verə bilərəm...” – deyə düşünürdü. Əvvəllər nə vaxtsa belə bir şey yaşamışdımı? Beyninə axtarış əmri verdi, amma xatırlaya bilmədi. Vaxtilə bu duyğu – əminlik, sonuna çatmaq, yetişmək, sorğusuz tamamlamaq duyğusu ona tanış idi. Amma qorunduğunu hiss etmək və qorunmağa izin vermək, yəni təslim olmaq nəsə yeni hiss idi. Çünki bu qəribə güvən duyğusu, əslində, gələcəkdən deyil, keçmişdən qorunmağa bənzəyirdi. Savaşmaqdan qorunmaqla deyil, savaşı qazanmaqla əlaqəli idi. Daqninin zəifliyinə deyil, güclülüyünə verilən dəstək idi... Onun əllərinin necə möhkəm olduğunu hiss edir, mis-qızılı rəngə çalan saçlarını görür, kipriklərinin yanağına düşən kölgələrini seyr edirdi. Beynindən qarışıq düşüncə keçdi: “Bəli, qorunma hissi var idi, amma nədən qorunma?... Bu idi həmin düşmən... elə deyilmi? Bu halda nəyə görə?...” Daqni bilmirdi, bu anda düşünə də bilmirdi. Bir neçə saat əvvəl məqsədi, hədəfi olduğunu

xatırlaması üçün beynini qurdalamalıydı. Bunun nə olduğunu tapıb çıxarmağa çalışdı.

– Sizi izlədiyimi bilirdinizmi? – deyə soruşdu.

– Xeyr.

– Təyyarəniz haradadır?

– Uçuş meydanında.

– Uçuş meydanı haradadır?

– Vadinin o biri tərəfində.

– Mən aşağı baxanda bu vadidə heç bir meydan yox idi. Heç çayır-filan da görmədim. Bu çayır bura necə gəldi?

Qolt başını qaldırıb səmaya baxdı.

– Diqqətlə baxın. Orada nəsə görürsünüzmü?

Daqni başını arxaya atdı, lakin səmada səhərin sakit maviliyindən başqa heç nə görmədi. Bir neçə saniyə sonra xəfif zolaqlar şəklində titrəşən havanı gördü.

– İsti dalğaları, – dedi.

– Yer atmosferində işıq şüalarının istiqamətini dəyişməsi, – deyə Qolt cavab verdi. – Gördüyünüz vadi səkkiz min fut yüksəkliyində olan dağın zirvəsidir, buradan da beş mil uzaqdadır.

– Necə, necə?

– Təəccüblənməyin, bəli, heç bir pilotun enmək istəmədiyi dağ zirvəsi. Sizin gördüyünüz isə bu vadiyə proyeksiyalanmış görüntü idi.

– Necə?

– Səhrada ilğım kimi: qızmış hava təbəqəsinin inikası kimi.

– Bəs inikas necə yaranır?

– Hər şeyə qarşı diqqətlə hesablanmış hava ekranı vasitəsilə... əlbəttə, sizin cəsarətiniz istisnadır.

– Nə demək istəyirsiniz?

– Təyyarənin yerdən cəmi yeddi yüz fut yüksəklikdə şığıyaraq hərəkət etməsi heç ağlıma gəlməmişdi. Siz şüa ekranına girdiniz. Bu şüaların bəzilərinin maqnit sahəsi yaratması nəticəsində mühərrik sönür. Nə deyim, siz məni ikinci dəfə təəccübləndirdiniz: bu vaxtadək məni izləyən olmamışdı.

– O ekran nəyinizə gərəkdir?

– Bura özəl mülkiyyətdir və belə də qalmalıdır.

– Bura nədir?

– Madam ki, gəlmisiniz, onu sizə göstərəcəyəm, miss Taqqert. Sonra da suallarınıza cavab verəcəyəm.

Daqni susdu. Qoltu hər məsələ barədə sorğu-suala çəkdiyinin, amma onun özü ilə bağlı heç nə soruşmadığının fərqinə vardı. Sanki bu adam bütöv idi, Daqni də onu ilk baxışdanca anlamış, çözmüşdü, onunla bağlı hər şeyi bilirdi. İndi yalnız bildiklərinin doğruluğuna əmin olması qalırdı.

Qolt onu qıvrılaraq vadinin dibinə sarı enən dar cığırla aparırdı. Ətraflarındakı yamaclarda qara, hündür küknar ağacları dik dayanmışdı. Olduqca bəsit sayıla biləcək qədər mərdanə, sanki heykəltəraş əlindən çıxmış kimi görünən bu ağaclar günəşdə titrəyən ağcaqayın yarpaqlarının yaratdığı mürəkkəb, incə, çoxcəhətli şəbəkə ilə tam ziddiyyət təşkil edirdi.

Günəş şüaları yarpaqların arasından süzülərək onun saçlarında, hər ikisinin üzündə oynaşırdı. Dolana-dolana uzanan cığır Daqninin aşağıları görməsinə imkan vermirdi.

Daqninin baxışları tez-tez onun üzündə gəzirdi. Qolt da ara-sıra Daqniyə baxırdı. Əvvəl-əvvəl Daqni gözlərini qaçırır, yaramazlıq edibmiş kimi davranırdı. Sonra isə ona müəllimdən dərs öyrənən şagird kimi baxmağa başladı və gözlərini qaçırmadı. İçindəki duyğuları onun da bildiyinin fərqində idi. Əslində, o da öz baxışlarının mənasını gizlətmirdi.

Daqni onun səssizliyinin özünün dinməzliyi ilə eyni etirafı daşıdığını bilirdi. Qolt onu, sadəcə, yeriyə bilməyən yaralı qadına yardım edən ehtirassız, həvəssiz kişi kimi daşımırdı. Əslində bu, qucaqlama idi. Amma Daqni Qoltun davranışında qətiyyən şəhvət deyilən nəsə görmürdü. Sadəcə, onun da bütün bədəni ilə aralarındakı təmasın fərqində olduğunu hiss edirdi.

Daqni qayalardan pillə-pillə, qırıq-qırıq axıb tökülən zərif büllur sapı görməzdən əvvəl şəlalə səsi eşitdi. Beynindəki qarışıq ritmlərin arasından gələn bu səs xatirələrin əks-sədasından yüksək deyildi. Amma irəlilədikləri zaman da ritm davam etdi. Daqni suyun səsini dinləyirdi, amma başqa bir səs də getdikcə daha aydın eşidilirdi, amma səs beynində deyil, yarpaqların arasından gəlirdi. Cığır qəfil buruldu, baxış bucağı genişləndi. Daqni aşağıdakı qayanın üzərində balaca ev gördü. Günəş şüaları evin açıq pəncərə şüşələrinə düşmüşdü. Daqni onu keçmişdən qopub bu ana təslim olmağa yönəldən təcrübənin nə olduğunu dərk etdi – "Kometa"nın tozlu vaqonunda Halleyin Beşinci konsertini ilk dəfə dinlədiyi gecə idi: indi də onu dinlədiyini bilirdi. Sanki kiminsə güclü, inamlı barmaqlarının dəqiq hərəkətilə fortepianonun dillərindən çıxıb gələn, sərbəst şəkildə qanad çalan dumduru, təmiz musiqi sədaları eşidirdi.

Tez-tələsik sanki Qoltu hazırlıqsız yaxalamaq istəyirmiş kimi soruşdu:

– Bu, Riçard Halleyin Beşinci konserti deyilmi?

– Bəli.